# Natəvanın heykəli Parisdə şərəfləndi



**Fransa paytaxtında ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə Qarabağın sonuncu xanı Mehdiqulu xan Cavanşirin qızı, şair Xurşidbanu Natəvanın Fransanın Evian-lö-Bən şəhərindən gətirilmiş abidəsi Azərbaycan Səfirliyinin Mədəniyyət Mərkəzinin həyətində ucaldılıb.**

Azərbaycanın Fransa və Monakoda fövqəladə və səlahiyyətli səfiri Leyla Abdullayeva Natəvanın heykəlinin belə bir tarixi gündə yenidən ucaldılmasının rəmzi əhəmiyyəti olduğunu bildirib. O qeyd edib ki, 2017-ci ildə İsmayıllı və Fransanın Evian-lö-Bən şəhərləri arasında imzalanmış dostluq və əməkdaşlıq xartiyası çərçivəsində Evian şəhərində, Leman gölü sahilində "Azərbaycan parkı"nın rəsmi açılış mərasimi olub. Eyni zamanda, İsmayıllı şəhəri tərəfindən Xurşidbanu Natəvanın heykəli Evian-lö-Bən şəhərinə hədiyyə edilib və abidə həmin parkda ucaldılıb. Ancaq 2023-cü il dekabr ayının 18-də radikal qüvvələr abidəyə qarşı vandalizm aktı törədiblər. Şəhər meriyası qərəzli mövqe tutaraq, abidənin bərpası istiqamətində heç bir addım atmayıb. Həmçinin meriya gələcəkdə bu abidəyə qarşı vandalizm aktının təkrarlanmayacağına zəmanət vermədiyi üçün Azərbaycan tərəfi abidəni geri götürüb. Qısa zamanda təmizlənmiş və bərpa edilmiş heykəl Parisdə Eyfel qülləsinin yanında yerləşən Azərbaycan Səfirliyinin Mədəniyyət Mərkəzinin həyətində yenidən ucaldılıb. Abidənin açılışında Fransada yaşayan azərbaycanlı opera müğənnisi Timur Abdikeyev "Sevgili canan" romansını ifa edib.

Xatırladaq ki, sözügedən vandalizm aktından sonra İsmayıllı Rayon İcra Hakimiyyəti Evian-lö-Bənlə dostluq və əməkdaşlıq xartiyasını ləğv edib.

***XQ***

Xalq qəzeti .- 2024.- 12 may, № 98.- S.10.